**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN BƏSTƏKARLARININ NƏFƏS ALƏTLƏRİ ÜÇÜN YAZILMIŞ ƏSƏRLƏRİNİN ÜSLUB XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Aynur Ehtiram qızı İsgəndərova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İsmayıl qızı İmanova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**Sevda Firuddin qızı Qurbanəliyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Leyla Zəki qızı Quliyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Orxan Nicat oğlu Zeynallı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədr müavini: sənətşünaslıq doktoru, professor
______________ **Tariyel Aydın oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
______________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
______________ **Aytac Elxan qızı Rəhimova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycan professional musiqi mədəniyyətinə Avropa mənşəli musiqi alətlərinin daxil olması bu sahə üzrə bir sıra əsərlərin yaranmasını şərtləndirir. Belə ki, XX əsrdə nəfəs alətlərinin formalaşması bu sahədə gedən inkişaf prosesləri ilə əlaqədar olmuş və bilavasitə bəstəkar yaradıcılığına nüfuz etmişdir. Azərbaycan musiqisində nəfəs alətlərinin tədrisinə olan maraq professional musiqinin inkişafı dövründə formalaşır. İlk dövrlərdə bu sahə üzrə milli ifaçılar say etibarilə məhdud olsa da, müəyyən müddətdən sonra bu sahədə canlanma nəzərə çarpmağa başlayır. Eyni zamanda hər hansı bir əsərdə nəfəs alətlərinin istifadəsi növbəti mərhələlərdə artıq müstəqil şəkildə bu səpkili əsərlərin yazılmasına gətirib çıxardırdı. Bu baxımdan Azərbaycan professional musiqi mədəniyyətində nəfəs alətlərinin bərqərar olmasında mərhələli inkişaf nəzərə çarpır. Bu isə öz növbəsində məntiqi şəkildə nəfəs alətləri sahəsində obraz və məzmun zənginliyi ilə fərqlənən müxtəlif janr nümunələrinin yaranmasının aktuallığını şərtləndirmişdir.

Nəfəs alətləri üzrə ifaçılığın formalaşması da öz növbəsində bəstəkar yaradıcılığında bu sahəyə olan marağın müəyyən istiqamətlərini yaradır. Belə ki, nəfəs alətləri sahəsində ifaçıların yüksək professional səviyyə nümayiş etdirməsi müxtəlif janrlı və mürəkkəb texniki imkanlara malik olan dolğun əsərlərin meydana gəlməsinə səbəb olur. Həmçinin ifaçılıq sənətinin inkişafına təkan verən bu əsərlər bədii və texniki xüsusiyyətlərin nümayiş etdirilməsi baxımından bu istiqamət üzrə gedən inkişafın göstəricisi kimi aktuallıq kəsb edir.

Nəfəs alətləri qrupunun XX əsrdə keçdiyi inkişaf yolu təbii olaraq, bu sahədə peşəkar səviyyənin püxtələşməsinə səbəb olur. Məlumdur ki, XX əsrin əvvəllərində böyük dühа Üzeyir Hacıbəyli nəfəs alətlərinin tədrisinin əhəmiyyətini anlayaraq, bu sahəyə də marağı artırmağa çalışırdı. Bunun nəticəsidir ki, Ü.Hacıbəyli 1930-cu illərdə ali musiqi ocağı olan konservatoriyada nəfəs alətləri üzrə kafedranın yaranmasına nail olur. İfaçılıq sənətinin formalaşdırılması bəstəkar yaradıcılığında bu sahəyə marağın şərtlərindən biri kimi əhəmiyyətli idi.

Eyni zamanda nəfəs alətləri üzrə tədris prosesinin təkmilləşməsi də bəstəkar əsərlərinin yaranması qədər aktual bir yanaşmanı nümayiş etdirirdi.

Nəfəs alətləri üzrə kompleks şəkildə inkişaf prosesinin intensivliyi, mərhələli şəkildə formalaşması, tədris prosesinin uğurlu nəticəsi kimi mükəmməl ifaçıların meydana gəlməsi və bəstəkar yaradıcılığının bu sahəyə müraciətinin araşdırılması tədqiqat mövzusunun aktuallığını müəyyənləşdirir. Nəfəs alətləri ifaçılığının müəyyən dərəcədə bəstəkar yaradıcılığından asılı olması da bu sahədə bir sıra əsərlərin yaranmasını labüd edir.

Məlumdur ki, Azərbaycan musiqişünaslıq elmində müəyyən sahələrin öyrənilməsi üstünlük təşkil etsə də, nəfəs alətləri sahəsi bir qədər diqqətdən kənarda qalmışdır. Nəfəs alətləri üzrə tədrisin tarixi baxımdan araşdırılması, bəstəkar əsərlərinin təhlil edilərək üzə çıxarılması, eləcə də müxtəlif janr yönümlü əsərlərin tədqiqi araşdırılan mövzunu aktual edən xüsusiyyətlərdəndir. Bu baxımdan tədqiq edilən mövzu Azərbaycan bəstəkarlarının yaradıcılığında nəfəs alətləri üçün yazılmış əsərlərin üslub xüsusiyyətlərinin öyrənilməsi kimi əhəmiyyətli sahəyə həsr olunmuşdur.

Məlumdur ki, Avropa mənşəli nəfəs alətləri ilə milli nəfəs alətləri arasında oxşarlıq mövcuddur. Şərq-Qərb musiqisi kontekstində bu kimi xüsusiyyətlərin araşdırılması və əlaqələrin müəyyən olunması mövzunun tədqiqi zamanı mühüm proseslərin izlənilməsinə gətirib çıxarır.

Azərbaycan bəstəkarlarının yaradıcılığında nəfəs alətləri üçün müxtəlif janr sahələrində yazılan əsərlərin yaranması böyük bir mərhələni əhatə edir. Həmin əsərlər nəfəs alətləri üçün repertuar zənginliyini yaratmaqla yanaşı, bu sahədə təkmilləşən üslub xüsusiyyətlərinin inkişafı baxımından da əhəmiyyətlidir və bunun öyrənilməsi isə mövzunun aktuallığını müəyyənləşdirir.

Tədqiqat prosesində Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış əsərlərinin janr yönümünün müəyyənləşdirilməsi, bu sahəyə gətirdiyi yeniliklərin aydınlaşdırılması və müasir musiqinin inkişaf istiqamətləri ilə uyğunlaşdırılması nəzərə çatdırılır. Bu baxımdan tədqiqata cəlb olunan əsərlərin bütün dövrlər üzrə Azərbaycan bəstəkarlarının yaradıcılığını əhatə etməsi isə bu sahənin mərhələli

şəkildə öyrənilməsinin aktuallığını müəyyənləşdirir. Bundan irəli gələrək, elmi-tədqiqat işində Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış əsərlərinin üslub xüsusiyyətlərinin əsaslandırılmış şəkildə üzə çıxarılması aktuallıq baxımından əhəmiyyətlidir.

Müasir musiqişünaslıqda janr və üslub baxımından müəyyən sahələrin araşdırılması aktual məsələlərdən biri kimi əhəmiyyətlidir. Bu baxımdan bəstəkar yaradıcılığında da müxtəlif sahələri əhatə edən əsərlərin təhlil edilməsi təqdirəlayiqdir. Belə ki, Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış əsərlərinin səciyyəvi keyfiyyətlərinin və müəyyən qanunauyğunluqlarının öyrənilməsi kimi məsələlər bir sıra elmi-nəzəri işlərdə işıqlandırılmışdır.

Onu da qeyd edək ki, müxtəlif alətlərin araşdırılması çərçivəsində nəfəs alətləri sahəsi tədqiqatlara cəlb edilsə də, bəstəkar yaradıcılığında yaranan əsərlərin tədqiqi diqqətdən kənarda qalmışdır və bu isə təqdim olunan mövzunun aktuallığını müəyyənləşdirir .

Azərbaycan musiqişünaslığında milli alətlərin öyrənilməsi çərçivəsində musiqişünas alim Səadət Abdullayevanın elmi-tədqiqat işlərində[1],[2] milli nəfəs alətləri araşdırılmışdır.

Musiqişünas alim Abbasqulu Nəcəfzadənin elmi fəaliyyətində Azərbaycan nəfəs alətlərinin araşdırılması aparıcı əhəmiyyət kəsb edir[3], [4], [5].

Nəfəs alətləri sahəsində hərtərəfli araşdırmalar istedadlı fleyta ifaçısı Ələkbər İskəndərovun elmi-nəzəri işlərində işıqlandırılmışdır. Bütün fəaliyyəti boyu nəfəs alətləri çərçivəsində fleyta alətinin xüsusiyyətlərini araşdıran Ə.İskəndərov «Флейта в творчестве азербайджанских композиторов» (“Azərbaycan bəstəkarlarının

---

[1] Abdullayeva, S.A. Azərbaycan folklorunda çalğı alətləri (tarixi-orqanoloji tədqiqat) / S.A.Abdullayeva. – Bakı: Adiloğlu, – 2007. – 216 s.

[2] Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri (tarixi-orqanoloji tədqiqat) / S.A.Abdullayeva. – Bakı: Adiloğlu, – 2002. – 454 s.

[3] Nəcəfzadə, A.İ. Azərbaycan nəfəs alətləri. Orqanoloji-tarixi tədqiqat: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2006. – 26 s.

[4] Nəcəfzadə, A.İ. Etnoorqanologiya / A.İ.Nəcəfzadə. – Bakı: Ecoprint, – 2016. – 304 s.

[5] Nəcəfzadə, A.İ. İdiofonlu çalğı alətlərinin Azərbaycan örnəkləri, mənşəyi və yeni təsnifatı: / sənətşünaslıq üzrə elmlər doktoru dis. / – Bakı, 2012. – 300 s.

yaradıcılığında fleyta aləti”) [6] adlı monoqrafiyasında Azərbaycan bəstəkarlarının fleyta üçün yazılmış əsərlərini işıqlandırmış, «Стилевые и исполнительские особенности произведений для флейты» (“Fleyta üçün yazılmış əsərlərin üslub və ifaçılıq xüsusiyyətləri”)[7] elmi-tədqiqat işində isə fleyta üçün yazılmış əsərlərə ifaçılıq baxımından yanaşaraq tədqiq etmişdir.

Qoboy ifaçısı Azər Abdullayevin “Avropa nəfəs alətlərində ifaçılıq tarixi”[8] adlı elmi-nəzəri əsərində nəfəs alətlərinin ifaçılıq xüsusiyyətləri araşdırılmış və tanınmış fleyta ifaçıları haqqında məlumatlar verilmişdir.

Musiqişünas alim və istedadlı ifaçı olan Elxan Babayevin nəfəs və zərb alətləri ilə bağlı elmi-metodiki fəaliyyəti xüsusilə əhəmiyyətlidir və onun elmi araşdırmaları[9], [10] dissertasiyada istinad olunmuş mənbələrə daxildir.

Görkəmli bəstəkar Firəngiz Əlizadə Azərbaycan bəstəkarlarının əsərlərinin orkestr üslubunu tədqiq edərkən[11], nəfəs alətləri sahəsinə də nəzər yetirmişdir.

Musiqişünas alim Zümrüd Dadaşzadə istedadlı bəstəkarlar Cavanşir Quliyev[12] və Elnarə Dadaşovanın[13] nəfəs alətləri üçün yazdığı müəyyən əsərləri araşdıraraq, səciyyəvi xüsusiyyətlərini işıqlandırmışdır.

---

[6] Искендеров, А.М. Флейта в творчестве азербайджанских композиторов / А.М.Искендеров. – Баку: Ишыг, – 1975, – 100 с.

[7] Искендеров, А.М. Стилевые и исполнительские особенности произведений для флейты / А.М.Искендеров. – Баку: Адилоглы, – 2002, – 194 с.

[8] Абдуллаев, А.Д. Очерк истории исполнительства на духовых инструментах европейского типа / А.Д.Абдуллаев. – Баку: Адилоглы, – 2003. – 204 с.

[9] Babayev, E.Ə. Konservatoriyanın ifaçılıq fakültəsinin qiyabi şöbəsində klarnet aləti üzrə təhsil alan tələbələr üçün metodik göstərişlər // – Bakı: AziNEFTEXİM, – 1984. – 26 s.

[10] Babayev, E.Ə. Musiqi tədris edən ali məktəblər üçün nəfəs və zərb alətləri ixtisas siniflərinin proqramı / – Bakı: Azərbaycan Dövlət Konservatoriyası, – 1994. – 23 s.

[11] Ализаде, Ф.А. Оркестровая стилистика в произведениях азербайджанских композиторов. Методологическая разработка по курсу «История оркестровых стилей» // Ф.А.Ализаде. – Баку: Язычы, – 1987. – 41 с.

[12] Dadaşzadə, Z.A. C.Quliyevin total musiqi axtarışlarında // – Bakı: Musiqi dünyası, – 2001. №1-2, – s. 87-91.

[13] Dadaşzadə, Z.A. Elnarə Dadaşova / Z.A.Dadaşzadə. – Bakı: Şərq-Qərb, – 2015. – 32 s.

Nəfəs alətləri sahəsində tanınmış ifaçı Yusif Axundzadənin elmi məqalələrində [14], [15] nəfəs alətləri sahəsi üzrə tarixi araşdırmalar diqqəti cəlb edir.

Müzəffər Ağamalızadənin nəfəs alətləri üzrə metodik vəsaitlərində Tofiq Bakıxanovun[16] və Oqtay Zülfüqarovun[17] fleyta və orkestr üçün konsertləri araşdırılmışdır.

Rüfət Axundzadənin araşdırmalarında ifaçısı olduğu trompet alətinin tarixindən[18], ifaçılıq xüsusiyyətlərindən bəhs olunmuş və bu alət üçün xarici bəstəkarların köçürmələri[19] nəzərə çatdırılmışdır.

Nəfəs alətləri ifaçısı Yaşar Qarayusifli müəllifi olduğu dərs vəsaitində[20] bəstəkar Əziz Əzizlinin nəfəs alətləri üçün yazılmış əsərlərindən bəhs etmişdir.

Nəfəs alətləri üçün yazılmış kvartetlər tədqiqatçı Yavər Neymətlinin elmi işində[21] təhlilə cəlb olunmuşdur.

Tədqiqatçı Nərgiz Əliyevanın elmi məqalələrində Xəyyam Mirzəzadə[22] və Elnarə Dadaşovanın[23] nəfəs alətləri üçün yazılmış əsərləri işıqlandırılmışdır.

---

[14] Axundzadə, Y.Y. Azərbaycanda hərbi orkestr xidmətinin tarixçəsi // Bakı: Musiqi dünyası, – 1999. № 1, – s. 72-75.

[15] Axundzadə, Y.Y. Yaradıcılıq (Fleytaçı Ə.İsgəndərov haqqında) // Bakı: Musiqi dünyası, – 2001. № 3-4 (9), – s. 215-216.

[16]Ağamalızadə, M.S. Oqtay Zülfüqarovun fleyta və orkestr üçün konserti. Metodik tövsiyələr / M.S.Ağamalızadə. – Bakı: Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, – 2009. – 36 s.

[17] Ağamalızadə, M.S. Tofiq Bakıxanovun fleyta və kamera orkestri üçün 2 saylı konsertinin interpretasiya xüsusiyyətlərinə dair. Metodik tövsiyələr / M.S.Ağamalızadə. – Bakı: Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, – 2005. – 34 s.

[18] Axundzadə, R.Y. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasıınn trompet sinfinin tarixi. Dərs vəsaiti / R.Axundzadə. – Bakı: Mütərcim, – 2014. – 96 s.

[19] Axundzadə, R.Y. Trompet alətinin yaranma tarixi, quruluşu və ifaçılıq xüsusiyyətlərinə dair. Xarici ölkə bəstəkarlarının əsərlərindən ibarət trompet və fortepiano üçün köçürmələr. Dərs vəsaiti / R.Axundzadə. – Bakı: Mütərcim, – 2021. – 84 s.

[20]Qarayusifli, Y.Q. Azərbaycan musiqisində trompet və simfonik orkestr üçün konsert janrının yaradıcısı bəstəkar və ifaçı Əziz Əzizli. Dərs vəsaiti / Y.Qarayusifli. – Bakı: CBS, – 2011. – 40 s.

[21] Neymətli, Y.S. Azərbaycan bəstəkarlarının yaradıcılığında kvartet janrının inkişafı və ifaçılıq problemləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2013. – 158 s.

Nəfəs üçün işləmə və köçürmələr sahəsində dahi bəstəkar Fikrət Əmirov[24],[25], eləcə də Ə.İskəndərov[26], [27], [28], [29], A.Rzayev[30], V.Anaşkin [31], M.Ağamalızadə [32], [33], Y.Qarayusifli [34], Ə.Qarayusifli [35], T.Hacıyev [36], Y.İmanov [37], R.Əhmədov [38],

---

22 Əliyeva, N.C. Xəyyam Mirzəzadənin taxta-nəfəs alətləri üçün yazdığı "Sekstet" əsərinin üslub xüsusiyyətləri // – Bakı: Musiqi dünyası, – 2016. № 1(66), – s. 107-111.

23 Əliyeva, N.C. Elnarə Dadaşovanın "Səda" əsərinin milli üslubunun təzahür prinsipləri // – Bakı: Konservatoriya, – 2018. № 1, – s. 35-39.

24 Əmirov, F.C. Aşıqsayağı. Fleyta (qoboy yaxud klarnet) ilə fortepiano üçün [Notlar]: / F.C.Əmirov. – Bakı: Azərbaycan Dövlət Musiqi Nəşriyyatı, – 1952. – 13 s.

25 Əmirov, F.C. Truba ilə fortepiano üçün köçürmələr. [Notlar]: / F.C.Əmirov. – Bakı: Mütərcim, – 2011. – 34 s.

26 İskəndərov, Ə.M., Novruzov, M. Fleyta və fortepiano üçün köçürmələr / Ə.İsgəndərov, M.Novruzov. – Bakı: Azərnəşr, – 1960. – 57 s.

27 İskəndərov, Ə.M. Pyeslər. Fleyta və fortepiano üçün [Notlar]: / – Bakı: Azərnəşr, – c.1. – 1961. – 14 s.

28 İskəndərov, Ə.M. Pyeslər. Fleyta və fortepiano üçün [Notlar]: / – Bakı: Azərnəşr, – c.2. – 1962. – 10 s.

29 İskəndərov, Ə.M. Pyeslər məcmuəsi. Fleyta və fortepiano üçün [Notlar]: / – Bakı: Azərnəşr, – c.2. – 1959. – 41 s.

30 Rzayev, A.H. Pyes. Valtorna (yaxud trombon) ilə fortepiano üçün [Notlar]: / – Bakı: Azərnəşr, – 1955. – 4 s

31 Anaşkin, V. Trubada çalmaq üçün ibtidai tədris kitabı [Notlar]: / – Bakı: Azərnəşr, – 1966. – 122 s.

32 Ağamalızadə, M.S. Azərbaycan bəstəkarlarının simfonik əsərlərindən orkestr çətinlikləri (fleyta üçün) [Notlar]: / – Bakı: Adiloğlu, – 2010. – 46 s.

33 Ağamalızadə, M.S. Azərbaycan bəstəkarlarının simfonik əsərlərindən orkestr çətinlikləri (qoboy üçün) [Notlar]: / – Bakı: Adiloğlu, – 2010. – 56 s.

34 Qarayusifli, Y.Q. Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət truba və fortepiano üçün işlənilən köçürmələr [Notlar]: / – Bakı: Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, – 2008. – 28 s.

35 Qarayusifli, Ə.Y. Azərbaycan bəstəkarlarının klarnet və fortepiano üçün əsərləri [Notlar]: / – Bakı: İşıq, – 2014. – 15 s.

36 Hacıyev, T.M. Azərbaycan bəstəkarlarının pyesləri. Fleyta və fortepiano üçün köçürmələr. Metodik vəsait [Notlar]: / – Bakı: Azərnəşr, – 1970. – 19 s.

37 İmanov, Y.Ə. Nəfəs və zərb alətləri üçün ansambl və pyeslər məcmuəsi / Y.Ə.İmanov. – Bakı: – Mars-Print, – 2006. – 103 s.

38 Əhmədov, R. Klarnet və fortepiano üçün köçürmələr (Ü.Hacıbəyli, F.Əmirov, T.Quliyev) [Notlar]: / – Bakı: "Orxan" Nəşriyyat və Poliqrafiya müəssisəsi, – 2015. – 24 s.

H.Hüseynov[39], M.Novruzov[40], [41], F.Məmmədov[42], Y.Axundzadə[43], Ş.Səmədov [44], N.Kərimov [45] və başqalarının fəaliyyəti qeyd olunmalıdır.

Sadalanan mənbələrlə yanaşı, tədqiqat işində rus musiqişünaslarının da elmi-tədqiqat əsərlərindən istifadə olunaraq, həmin mənbələrə istinad edilmişdir. Belə ki, N.A.Rimski-Korsakov[46], D.R.Roqal-Levitski[47], V.İ.Kojuxar[48], S.Y.Levin[49] kimi görkəmli alimlərin elmi yanaşmaları işdə əsas götürülmüşdür.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan professional musiqisində nəfəs alətləri qrupunun yaranması, inkişafı və bəstəkar yaradıcılığında istifadəsi, predmetini isə nəfəs alətləri üçün yazılmış əsərlərin üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Azərbaycan bəstəkarlarının yaradıcılığında nəfəs alətləri

---

[39] Hüseynov, H. Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət truba və fortepiano üçün işlənilən köçürmələr. Dərs vəsaiti [Notlar]: / – Bakı: Adiloğlu, – 2008. – 32 s.
[40] Novruzov, M.S. Klarnet məktəbi iki sistem üçün / M.S.Novruzov. – Bakı: Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, – 2010. – 71 s.
[41] Novruzov, M.S. Klarnet məktəbi (II nəşr) / M.S.Novruzov. – Bakı: İnkişaf MMC, – 2008. – 76 s.
[42] Məmmədov, F.Q. Klarnet üçün işləmə və köçürmələr / F.Q.Məmmədov. – Bakı: İnkişaf MMC, – 2008. – 76 s.
[43] Axundzadə, R.Y. Azərbaycan bəstəkarlarının əsərləri. Truba və fortepiano üçün işlənməsi və köçürülməsi. [Notlar]: / – Bakı: Hərbi, – 2010. – 80 s.
[44] Səmədov, Ş.L. Klarnet üçün orkestr çətinlikləri. Azərbaycan bəstəkarlarının opera və simfonik əsərlərindən hissələr / Ş.L.Səmədov. – Bakı: Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası, – 2011. – 75 s.
[45] Kərimov, N. Azərbaycan bəstəkarlarının əsərlərindən parçalar nəfəs alətləri orkestri üçün [Notlar]: / – Bakı: İşıq, – 1995. – 127 s.
[46] Римский-Корсаков, Н.А. Основы оркестровки / Н.А.Римский-Корсаков. – Москва: Гос.Муз.Изд, – т.1. – 1946. – 122 с.
[47] Рогаль-Левицкий, Д.Р. Современный оркестр / Д.Р.Рогаль-Левицкий. – Москва: Гос.Муз.Изд, – т.1. – 1953. – 481 с., – т. 2. – 1953. – 447 с., – т.3. – 1956. – 356 с., – т.4. – 1956. – 315 с.
[48] Кожухарь, В.И. Инструментоведение. Симфонический и духовые оркестры. Учебное пособие / В.И.Кожухарь. – Москва: Планета музыки, – 2009. – 320 с.
[49] Левин, С.Я. Духовые инструменты в истории музыки / С.Я.Левин. – Ленинград: Музыка, – 1983. – 190 с.

üçün yazılmış əsərləri araşdırmaq və üslub xüsusiyyətlərini müəyyənləşdirməkdir. Məqsəddən irəli gələn vəzifələr aşağıdakılardan ibarətdir:

–Azərbaycan professional musiqisində Avropa mənşəli nəfəs alətlərinin inkişaf tarixini araşdırmaq;

–Nəfəs alətləri kafedrasının yaranmasını və bu istiqamət üzrə təhsil sistemini işıqlandırmaq;

–Azərbaycan bəstəkarlarının yaradıcılığında nəfəs alətlərinin tətbiqini nəzərdən keçirmək;

–Nəfəs alətləri üçün yazılmış əsərlərin janr xüsusiyyətlərini müəyyənləşdirmək;

–Şərq-Qərb musiqisi kontekstində nəfəs alətləri üçün yazılmış ansambl, solo, kamera-instrumental, silsilə və konsert əsərlərini tarixi və nəzəri təhlilə cəlb edərək, səciyyəvi xüsusiyyətlərini açıqlamaq;

–Nəfəs musiqi alətlərinin məzmun, musiqi və harmonik dil səviyyəsində milli musiqinin xüsusiyyətləri ilə zənginləşməsini aydınlaşdırmaq;

–Nəfəs musiqi alətlərinin milli ifaçılıq mədəniyyətinin formalaşmasında və inkişafında əhəmiyyətini işıqlandırmaq;

–Təhlilə əsaslanaraq, Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış əsərlərinin üslub xüsusiyyətlərini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat işində sistemli şəkildə araşdırılma aparılaraq, tarixi, nəzəri və müqayisəli təhlil metodları istifadə olunmuşdur. Dissertasiyada Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış ansambl, solo, silsilə və konsert əsərləri ətraflı şəkildə tədqiq olunmuşdur. Bundan irəli gələrək, Azərbaycanda nəfəs alətləri üzrə təhsil sisteminin yaranması tarixinə nəzər salınmışdır. Tədqiqat işində təhlilə cəlb olunmuş əsərlər forma-quruluş, musiqi və harmonik dil, faktura, musiqi ifadə vasitələri və digər xüsusiyyətlər baxımından araşdırılmışdır. Mövzunun tədqiqi zamanı musiqişünaslığın elmi-nəzəri və tarixi araşdırma prinsiplərinə əsaslanılmışdır. Tədqiqat işində görkəmli Azərbaycan musiqişünas alimlərindən Ü.Ə.Hacıbəylinin [50], Ə.B.Bədəlbəylinin [51],

---

[50] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Apostrof, – 2010. – 152 s.

E.Ə.Abasovanın [52], S.A.Abdullayevanın[53], G.A.Abdullazadənin[54], S.C.Qasımovanın [55], F.Ş.Əliyevanın [56], Ş.H.Həsənovanın [57], Ü.İ.İmanovanın[58] və G.R.Mahmudovanın[59] müxtəlif istiqamətlər üzrə elmi-nəzəri tədqiqatlarından bəhrələnilmişdir. Eləcə də nəfəs alətləri sahəsi üzrə ifaçı mütəxəssislərdən Ə.M.İskəndərovun, Y.Y.Axundzadənin, E.Ə.Babayevin, M.S.Ağamalızadənin, Y.Q.Qarayusiflinin, A.C.Abdullayevin R.Y.Axundzadənin, xarici ölkə musiqişünaslardan D.M.Roqal-Levitski, V.İ.Kojuxar, S.Y.Levin və başqalarının bu sahədə müəllifi olduqları elmi-tədqiqat işləri tədqiqatın metodoloji əsasını təşkil edir.

Tədqiqat zamanı əsərlərdə verilən təhlillərin forma və quruluş, melodik və harmonik dil, üslub xüsusiyyətləri və digər nəzəri aspektlərin araşdırılması zamanı L.A.Mazel [60], İ.A.Sposobin [61], S.S.Skrebkov [62], V.A.Tsurkerman [63], S.İ.Koqoutek [64] və digər musiqişünas alimlərin elmi yanaşmalarına əsaslanılmışdır.

---

[51] Bədəlbəyli, Ə.B. İzahlı monoqrafik musiqi lüğəti / Ə.B.Bədəlbəyli. – Bakı: Şərq-Qərb, – 2017. – 472 s.
[52] Абасова, Э.А. Композиторы Азербайджана // – Москва: Музыкальная жизнь, – 1961. № 5, – 46-49 с.
[53] Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri (tarixi-orqanoloji tədqiqat) / S.A.Abdullayeva. – Bakı: Adiloğlu, – 2002. – 454 s.
[54] Abdullazadə, G.A. Qədim və orta əsrlərin musiqi mədəniyyəti. Şərq və Qərb kontekstində / G.A.Abdullazadə. – Bakı: Şərq-Qərb, – 2009. – 272 s.
[55] Qasımova, S.C. Fikrət Əmirov / S.C.Qasımova, Z.K.Abdullayeva. – Bakı: Nağıl evi, – 2004. – 210 s.
[56] Əliyeva, F.Ş. Azərbaycan bəstəkarlarının yaradıcılığında üslub xüsusiyyətləri / F.Ş.Əliyeva. – Bakı: Elm və həyat, – 1996. – 118 s.
[57] Həsənova, Ş.H. Musa Mirzəyev / Ş.Həsənova. – Bakı: Apostrof, – 2008. – 117 s.
[58] Иманова, У.И. Классицизм XX века и музыка Кара Караева: / автореферат дис. доктора философии по искусствоведению. / – Ташкент, 1990. – 28 с.
[59] Махмудова, Г.Р. Остинатность в музыке устной традиции Азербайджана / Г.Р.Махмудова. – Баку: Адильоглу, – 2001. – 151 с.
[60] Mazel, L.A. Musiqi əsərlərinin quruluşu / L.A.Mazel. – Bakı: Maarif, – 1988. – s. 462.
[61] Способин, И.В. Музыкальная форма / И.В.Способин. – Москва: Музыка, – 1970. – 191 с.
[62] Скребков, С.С. Анализ музыкальных произведений / С.С.Скребков. – Москва: Музгиз, – 2019. – 302 с.
[63] Цуккерман, В.А. Музыкальные жанры и основы музыкальных форм / В.А.Цуккерман. – Москва: Музыка, – 1964. – 278 с.

Musiqişünas alimlərin əsaslandırılmış fikir və mülahizələri tədqiqat işinin metodoloji əsasını müəyyənləşdirmiş və qarşıya qoyulan tələblərin sistemli şəkildə yerinə yetirilməsini şərtləndirmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində aşağıdakı müddəalar irəli sürülmüşdür:

– Avropa mənşəli nəfəs alətlərinin Azərbaycan musiqisinə daxil olması ilə musiqi təhsili sistemində yeni istiqamətin yaranması;

– Azərbaycan bəstəkarlarının yaradıcılığında nəfəs alətləri üçün yazılmış əsərlərin ansambl, solo, kamera-instrumental, silsilə və konsert janrları səviyyəsində təmsil olunması;

– Bəstəkar əsərləri ilə yanaşı, nəfəs alətləri üçün işləmə və köçürmələrin yaranmasının bu sahədə repertuar zənginliyini yaratması;

– Nəfəs alətləri üçün yazılmış əsərlərə Şərq-Qərb musiqisi kontekstində yanaşılması;

– Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün əsərlərində xalq yaradıcılığına, muğam intonasiyalarına, aşıq musiqisinə əsaslanmanın və milli musiqinin səciyyəvi xüsusiyyətlərindən istifadə olunmasının müəyyən olunması;

– Nəfəs alətləri üçün yazılmış əsərlərin məzmun, harmonik və musiqi dili səviyyəsində yeniliklər əldə olunmasının aşkar edilməsi;

– Təhlilə cəlb edilmiş nəfəs alətləri üçün əsərlərin araşdırılması nəticəsində Azərbaycan bəstəkarlarının bu sahə üzrə üslub xüsusiyyətlərinin işıqlandırılması.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə olaraq tədqiqat işində Avropa mənşəli nəfəs musiqi alətlərinin Azərbaycan mədəniyyətinə daxil olması, bu sahə üzrə təhsil sisteminin yaranması və milli bəstəkarlıq məktəbi nümayəndələrinin əsərləri ətraflı şəkildə tədqiq olunmuşdur. Mövzunun işlənilməsi zamanı əldə olunan müddəalar tədqiqatın elmi yeniliklərini müəyyən edir:

---

[64] Когоутек, Ц.И. Техника композиции в музыке XX века / Ц.И.Когоутек – Москва: Музыка, – 1976. – 294 с.

– İlk dəfə olaraq, Avropa mənşəli nəfəs musiqi alətlərinin Azərbaycan professional musiqisində tətbiqi və inkişafı kompleks şəkildə araşdırılır və tarixi-nəzəri baxımdan işıqlandırılır;

– Azərbaycan bəstəkarlarının yaradıcılığında nəfəs alətləri üçün yazılmış əsərlərin ilk dəfə olaraq böyük bir hissəsi üzə çıxarılır və tədqiqata cəlb edilir;

– Azərbaycan musiqisində nəfəs alətləri üçün yazılmış əsərlər kiçik (ansambl və solo) və iri (silsilə və konsert) həcmli olmaqla iki qrup üzrə təsnifatlaşdırılaraq təhlil olunur;

– Milli musiqidə nəfəs alətləri üçün yazılmış əsərlər – F.Əmirovun fleyta (qoboy və ya klarnet) və fortepiano üçün "Pyeslər" silsiləsi; Əşrəf Abbasovun fleyta və fortepiano üçün "Yaz nəğməsi" və "Sonatina-fantaziya"; Musa Mirzəyevin truba və orkestr üçün "Poema-noktürn" pyesi; Nazim Əliverdibəyovun fleyta və fortepiano üçün "Elegiya"; Xəyyam Mirzəzadənin blok-fleyta və gitara üçün "Metamorphose", solo klarnet üçün "Capriccio" pyesi, iki truba, valtorna və trombon üçün kvarteti, ağac nəfəs alətləri üçün yazdığı "Klassik üslubda sekstet"; Elnarə Dadaşovanın milli nəfəs alətləri üçün "Diptix", iki fleyta və fortepiano üçün "Səda" pyesi, tuba və fortepiano üçün pyesi, nəfəs alətləri kvinteti üçün "Şənlik nəğməsi", "Torağayın nəğməsi" pyesləri; Oqtay Zülfüqarovun fleyta və orkestr üçün konserti; Cahangir Zülfüqarovun fleyta və orkestr üçün "Ümid adası" simfonik qravürləri; İlham Azmanlının klarnet və fortepiano üçün "Bachiana-Bakuana" silsiləsi tədqiqatın mövzusu çərçivəsində ətraflı təhlil edilir;

– Təhlilə cəlb edilmiş əsərlər əsasında müəyyən olunmuşdur ki, Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış əsərlərində yenilik məzmun, harmonik və musiqi dili, metro-ritmik quruluşda nəzərə çarpır;

– Tədqiqat zamanı Azərbaycan bəstəkarlarının Avropa mənşəli nəfəs alətləri üçün əsərlərində milli musiqiyə xas olan xüsusiyyətlərin təzahürü aşkarlanaraq üzə çıxarılır və hərtərəfli şəkildə araşdırılır;

– Nəfəs alətləri üçün yazılan əsərlərdə xalq yaradıcılığının xüsusiyyətlərinin, xüsusilə muğam intonasiyalarının, aşıq musiqisinə xas olan ritmik fiqurasiyaların, xalq mahnılarının elementlərinin

istifadə olunması müşahidə edilir və tədqiqatda təhlil olunan əsərlərə bu aspektdən yanaşılır;

– Araşdırmalar zamanı iki fərqli təfəkkürdə – Şərq və Qərb musiqisi kontekstində yaranmış əsərlər aşkar edilir, onlarda milli nəfəs alətlərinin və musiqi xüsusiyyətlərinin tətbiq edilməsi Azərbaycan professional musiqisinin dünya mədəniyyətinə doğru inteqrasiyası kimi dəyərləndirilir. Bu yanaşma tərzi ilk dəfə olaraq elmi-tədqiqat əsəri səviyyəsində öyrənilmişdir;

– Təhlilə cəlb edilmiş nümunələrin ətraflı araşdırılması nəticəsində Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış əsərlərinin üslub xüsusiyyətləri müəyyən olunur.

Qeyd edək ki, müasir dövr Azərbaycan bəstəkarları və ifaçıları tərəfindən truba aləti trompet adlandığına görə, dissertasiyada bu alət hər iki yazılışda istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqatın nəticələri Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış əsərlərinin üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsini işıqlandırır. Müxtəlif janr sahələrini əhatə edən əsərlərin təhlil edilməsi bu istiqamət üzrə bir sıra gələcək araşdırmaların yaranmasını şərtləndirir. Tədqiqatın mövzusunun müasir musiqişünaslığın tələblərinə cavab verməsi və təhlil zamanı müəyyən olunmuş qənaətlər bu səpkili elmi-tədqiqat əsərlərində faydalı mənbə ola bilər. Tədqiqatın nəticələrindən "Musiqi tarixi", "Musiqi əsərlərinin təhlili", "Musiqi nəzəriyyəsi", "Alətşünaslıq" və musiqi təhsilinin müxtəlif pillələrində nəfəs alətləri üzrə fənlərin tədrisində vəsait kimi istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları və nəticələri respublika və beynəlxalq əhəmiyyətli elmi konfranslarda, beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə dərc olunmuş məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, yeddi paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat

siyahısı və əlavələrdən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, giriş 12 səhifə (18 955 işarə), I fəsil 43 səhifə (82 859 işarə), II fəsil 53 səhifə (88 048 işarə), III fəsil 37 səhifə (67 201 işarə), nəticə isə 6 səhifədən (9 930 işarə) ibarətdir. Tədqiqat işinin ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla 150 səhifə və 266 993 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın **I fəsli "Azərbaycan bəstəkarlarının yaradıcılığında nəfəs alətlərinin tətbiqi və inkişafı"** adlanır və üç paraqrafdan ibarətdir. **1.1. "Nəfəs alətləri üzrə professional musiqi təhsilinin yaranması və formalaşmasının inkişaf mərhələləri"** adlı paraqrafda Azərbaycanda nəfəs alətlərinin professional səviyyədə tədrisindən bəhs olunur. 1900-cu illərdə Bakıda A.N.Yermolayevanın fərdi məktəbində digər alətlərlə yanaşı, nəfəs alətləri də tədris edilirdi. 1921-ci ildə Azərbaycan Dövlət Konservatoriyası yaranandan sonra tədrisdə nəfəs alətlərinə böyük diqqət verilirdi. Bunun üçün mütəxəssislər dəvət edilir və ilk dövrdə konservatoriyada nəfəs alətləri üzrə S.İ.Berolski (valtorna), H.Mədətov (fleyta), Q.K.Popovitski və V.A.Knyazkov (qoboy), İ.A.Fedoroviç (klarnet), A.P.Kolpinski (truba), F.V.Çernıx (faqot), S.S.Bulatov (trombon) kimi müəllimlər fəaliyyət göstərirdilər. Ü.Hacıbəyli konservatoriyada milli kadrların yetişdirilməsinə böyük əhəmiyyət verirdi. Onu da qeyd edək ki, Azərbaycanın professional təhsil almış ilk bəstəkarı A.Zeynallı, S.Hacıbəyov nəfəs alətləri üzrə təhsil almış və A.Kolpinskinin truba sinfini bitirmişlər. 1930-cu illərin sonuna yaxın konservatoriyada nəfəs alətləri kafedrası yaradılır və ona Q.K.Popovitski rəhbər təyin olunur, Ə.K.Əliyev (trombon) və İ.P.Konoplyov (fleyta) isə pedaqoji fəaliyyətə başlayır.

Kafedrasının təməlini qoyanlar sırasında Əməkdar incəsənət xadimi V.A.Knyazkov da qeyd edilməlidir.

Nəfəs alətləri kafedrasının işində yüksəliş 1950-ci illərdən başlanır. 1960-cı illərdə kafedranın fəaliyyəti bir neçə istiqamət üzrə təşkil olunur. Belə ki, Azərbaycan bəstəkarlarının əsərlərinin nəfəs alətləri üçün köçürmələri və işləmələri üzərində işlər aparılır, tədris repertuarı genişləndirilir, ifaçılıq sahəsində elmi-metodiki işlərin və tədqiqatların aparılmasına xüsusi əhəmiyyət verilir. Həmin illərdə Azərbaycan Dövlət Konservatoriyasının ilk yetirmələri kafedrada müəllim kimi çalışmağa başlayır. 1951-ci ildən kafedrada müəllim kimi fəaliyyətə başlayan fleyta ifaçısı Ə.İskəndərov pedaqoji fəaliyyətlə yanaşı, elmi-tədqiqat işi ilə də məşğul olur. Kafedranın fəaliyyətində M.Ağamalızadə, Xalq artisti, professor Y.Axundzadənin mühüm rolu olmuşdur.

Qoboy sinfinin yaranmasında Q.K.Popovitski və V.A.Knyazkov mühüm rol oynamışlar. Q.K.Popovitski 1921-33-cü illərdə nəfəs alətləri kafedrasına rəhbərlik etmişdir. 1965-1992-ci illərdə isə kafedranın müdiri istedadlı qoboy ifaçısı A.Abdullayev olmuşdur. O, tədrislə yanaşı, elmi-metodiki sahədə də yaradıcı münasibət formalaşdırmışdır. 1992-2003-cü illərdə nəfəs alətləri kafedrasına professor, sənətşünaslıq doktoru E.Babayev rəhbərlik etmişdir. 1992-ci ildə nəfəs alətləri üzrə Fikrət Əmirov adına ilk müsabiqənin keçirilməsinin təşəbbüskarı E.Babayev olmuşdur.

Klarnet alətində ifaçılığın təməli 1930-cu illərdə qoyulmuşdur. Riqa Musiqi Məktəbinin məzunu olan S.V.Kuznetsov 1949-cu ilə qədər klarnet müəllimi kimi çalışmışdır.

Faqot ifaçılıq sənətini konservatoriyada ilk dəfə tədris edən F.V.Çernıx olmuşdur. Ə.X.Məhəmmədov isə Azərbaycanda nəfəs alətləri ifaçılığı sahəsində ilk dərs vəsaitinin müəllifidir.

Konservatoriyada truba (trompet) ixtisasının təməlini Ü.Hacıbəyli tərəfindən Bakıya dəvət edilmiş A.P.Kolpinski qoymuşdur. 1933-1943-cü illər ərzində kafedraya rəhbərlik edən professor S.İ.Berolski valtorna aləti üzrə kafedrada birinci müəllim olmaqla yanaşı, Əməkdar incəsənət xadimi adına layiq görülən ilk valtorna ifaçısı idi. Trombon sinfinin açılması S.S.Bulatovun adı ilə bağlıdır.

Truba və kamera ansamblı sinfinin müəllimi kimi çalışan E.Əfəndiyevin sinfində R.Rəsulov, H.Hüseynov, Y.Qarayusifli, H.Abasquliyev kimi truba ifaçıları təhsil almışlar.

Hal-hazırda son onilliklərdə BMA-nın nəfəs və zərb alətləri kafedrasında F.Məmmədov, R.Axundzadə və digər ifaçılar pedaqoji fəaliyyətlə yanaşı, həm də elmi tədqiqat sahəsində də fəaliyyət göstərir.

**1.2. "Pedaqoji repertuarın müəyyənləşməsində nəfəs alətləri üçün yazılan işləmə və köçürmələrin əhəmiyyəti"** adlanır. Bu paraqrafda müxtəlif illərdə nəfəs alətləri üçün yazılan işləmə və köçürmələr haqqında məlumat verilir. Nəfəs alətləri üzrə tədrisə marağın artması repertuar seçimi məsələsini gündəmə gətirir. Sırf nəfəs alətləri üçün bəstələnmiş əsərlərlə yanaşı, Azərbaycan bəstəkarlarının müxtəlif janrları təmsil edən əsərləri əsasında işləmə və köçürmələr etmək zərurəti yaranır. Belə işləmə və köçürmələrdə kiçik və iri formalı əsərlər əsasında hər hansı bir nəfəs alətinin yeni potensial imkanları təzahür edir. Eyni zamanda işləmə və köçürmələrdə ifaçının texniki imkanlarının artırılması və bir sıra ifaçılıq vərdişlərinə yiyələnməsi də nəzərdə tutulur. Burada köçürmə və işləmələr müəlliflərinin yüksək peşəkarlığı, pedaqoji təcrübəsi, bədii zövqü və yaradıcı yanaşma tərzi mühüm rol oynayır. Əsərlərin səslənmə xüsusiyyəti ilə yanaşı, obraz-emosional məzmunu da köçürmə və işləmələrdə qorunub saxlanılır. Hər bir alətin özünəxas olan ifa xüsusiyyətləri və imkanlarının mövcudluğundan irəli gələrək, köçürmə zamanı fakturada müəyyən dəyişikliklərin olması mümkündür. Əksər hallarda, xüsusən simfonik musiqi nümunələrində, əsərin orijinalı ilə müqayisədə köçürülən nəfəs alətinin minimal texniki ifa xüsusiyyətləri ilə rastlaşmaq mümkündür. Bəzən isə əksinə, məsələn, vokal əsəri köçürərkən registr dəyişilməsi ilə yanaşı, dinamik çalarlara da yeniliklər gətirilə bilər. Müxtəlif illərdə V.Anaşkin, T.Şahverdiyev, Ə.İskəndərov, M.Novruzov, Ə.Hacıyev, R.Əhmədov, R.Rəsulov, Y.İmanov, F.Məmmədov, R.Axundzadə, H.Hüseynov və digər ifaçılar tərəfindən işləmə və köçürmələr hazırlanmışdır və bunlar haqqında dissertasiyada ətraflı məlumat verilmişdir.

**1.3. “Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış əsərlərində janr müxtəlifliyi”** adlanır. Bu paraqrafda əvvəlcə Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirov, C.Hacıyev, Niyazi və S.Hacıbəyovun müxtəlif janrları əhatə edən əsərlərində nəfəs alətlərinin tembr imkanlarından məharətlə istifadə olunmasından bəhs edilir. Sonra Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış və müxtəlif janrları əhatə edən əsərləri nəzərdən keçirilir.

1950-ci illərdə A.Məlikovun fleyta ilə orkestr üçün “Konsertino” əsəri istisna olmaqla, kiçik həcmli pyeslərin bəstələnməsinə üstünlük verilir. 1960-cı illərdə nəfəs alətləri üçün yazılmış əsərlər azlıq təşkil edir və əsasən kiçik həcmli miniatür pyeslər yazılırdı. 1970-ci illərdən başlayaraq nəfəs alətləri sahəsinə maraq artır.

A.Əlizadənin “Kənd süitası”, “Şirvan lövhələri”, “Abşeron lövhələri” kimi əsərlərində ağac nəfəs alətlərinin tembr xüsusiyyətləri tətbiq olunur.

X.Mirzəzadə müxtəlif illərdə ağac nəfəs alətləri üçün sekstet, qoboy və fortepiano üçün “Xalq mahnısı”, nəfəs alətləri üçün “Beş pyes”, “Memory”, bas klarnet üçün solo sonata, solo qoboy üçün “Monoloq” pyesi, solo klarnet üçün “Capriccio” pyesi və digər əsərləri yazmışdır.

M.Mirzəyevin truba ilə orkestr üçün “Poema-noktürn” əsəri (1982) nəfəs alətinin ifaçılıq xüsusiyyətlərinin ifadəsi baxımından diqqətəlayiqdir.

F.Əlizadənin müasirliyi əks etdirən bir çox kompozisiyalarında nəfəs alətlərinin imkanlarından istifadə edilmişdir. Bu baxımdan bəstəkar “Kvartet-Poema”sında klarnet, viola və iki zərb alətindən (1983), “Yapon poeziyasından” adlı vokal silsiləsində (İ.Takubokunun sözlərinə) soprano və fortepiano (piano, vibrafon, çelesta) ilə yanaşı fleytadan istifadə etmişdir.

T.Bakıxanov nəfəs alətləri üçün çoxsaylı əsərlərin müəllifi kimi daha çox konsert janrına üstünlük vermişdir.

1980-90-cı illərdən başlayaraq, nəfəs alətləri sahəsinə maraq artır. Həmin illərdə F.Qarayev, A.Dadaşov, İ.Hacıbəyov, C.Quliyev, R.Həsənova, E.Dadaşova, S.Fərəcov, C.Zülfüqarov, H.Adıgözəlzadə,

V.Allahverdiyev, İ.Abdullayev, İ.Azmanlı və digər bəstəkarları qeyd etmək mümkündür.

Dissertasiyanın **II fəsli "Azərbaycan musiqisində nəfəs alətləri üçün yazılmış kiçik həcmli əsərlərin səciyyəvi xüsusiyyətləri"** adlanır və iki paraqrafdan ibarətdir. **2.1. "Kiçik həcmli ansambl və solo əsərlərində nəfəs alətlərinə yanaşma tərzinin xüsusiyyətləri"** adlanır və burada F.Əmirovun "Pyeslər" silsiləsi, Ə.Abbasovun "Yaz nəğməsi" və "Sonatina-fantaziya", N.Əliverdibəyovun "Elegiya", X.Mirzəzadənin "Metamorphose", E.Dadaşovanın "Diptix", iki fleyta və fortepiano üçün "Səda", tuba və fortepiano üçün olan pyesi, X.Mirzəzadənin solo klarnet üçün "Capriccio" əsəri təhlil edilmişdir.

F.Əmirovun "Pyeslər" silsiləsinə altı pyes daxildir və hər biri proqramlıdır. Pyeslər müstəqil ifa olunsa da, bir-biri ilə əlaqəlidir. Bəstəkar əsərlərinin proqramlı məzmunu üçün səciyyəvi olan vətən obrazını və onun doğma təbiətini, lirik hiss və həyəcanları bu silsilənin də proqramlı məzmununa aşılamışdır. Eyni zamanda onun fortepiano üçün "12 miniatür", "Uşaq lövhələri" kimi silsilə əsərlərində olan proqramlılıq, miniatür janrının xüsusiyyətləri və obraz-emosional məzmun nəfəs alətləri üçün yazdığı "Pyeslər"də davam etdirilmişdir.

Ə.Abbasovun fleyta və fortepiano üçün "Yaz nəğməsi" kiçik həcmli olmasına baxmayaraq, çox axıcı və hərəkətli melodik quruluşa malikdir və fleyta alətinin ifaçılıq xüsusiyyətlərini məharətlə ifadə edir. Bəstəkarın fleyta və fortepiano üçün yazdığı digər əsəri – "Sonatina-fantaziya"nın əsasını "Yaz nəğməsi" pyesi təşkil edir. Bəstəkar əsəri "Sonatina-fantaziya" adlandırmaqla həm onun quruluş xüsusiyyətlərindəki sonatalılığı, həm də sərbəstliyi əks etdirir.

N.Əliverdibəyovun fleyta və fortepiano üçün "Elegiya" pyesi kədərli, düşüncəli və lirik xarakterə malikdir və əsərdə muğamın inkişaf qanunauyğunluqları nəzərə çarpır. Sadə ikihissəli quruluşa malik əsərin maraqlı xüsusiyyəti sərbəst tərzli giriş və muğam improvizə üslubunda yazılmış böyük kodadan ibarət olmasıdır.

X.Mirzəzadə nəfəs alətləri üçün yazdığı "Metamorphose" əsərində fərqli tembr imkanlarına malik olan blok fleyta və gitaranı

bir-biri ilə ahəngləşdirmiş və qeyri-adi tembr səslənməsi yaratmışdır. Əsər variasiya formasında yazılmışdır və yığcam, forma baxımından bitkin olan altı variasiyadan ibarətdir.

E.Dadaşovanın "Diptix" əsəri balaban, zurna, tütək, ney və kamera orkestri üçün yazılıb. Burada iki pyes ("Lay-lay" və "Şənlik") ardıcıl olaraq bir-birinin davamı kimi səslənir. İki fleyta və fortepiano üçün "Səda" pyesi isə bəstəkarın "Sənə düşüb meyilim" vokal əsərinin əsasında yazılmışdır və hər fleytanın müstəqil mövzusu var. Bəstəkarın tuba və fortepiano üçün pyesi bir-birinin ardınca "attacca" səslənən iki nömrədən ibarətdir: "Xoral" və "Lay-lay".

X.Mirzəzadənin solo klarnet üçün yazılan "Capriccio" əsəri sərbəst ifadə tərzinə, improvizə xüsusiyyətlərinə malik olan pyesdir. Bu əsərdə müasir Qərb yazı üslubunun texniki imkanlarına əsaslanan X.Mirzəzadə milli muğam sənətinin məqam xüsusiyyətinin ifadəliliyini tətbiq etmişdir.

**2.2. "Kamera-instrumental əsərlərdə millilik çərçivəsində müasirliyin təzahürü"** adlanır. Bu paraqrafda X.Mirzəzadənin mis nəfəs alətləri üçün kvarteti və ağac nəfəs alətləri üçün seksteti, E.Dadaşovanın nəfəs alətləri kvinteti üçün bir neçə pyesi, o cümlədən "Torağayın nəğməsi", "Şənlik nəğməsi" kvinteti təhlilə cəlb edilmişdir.

X.Mirzəzadənin mis nəfəs alətləri üçün olan kvarteti iki truba, valtorna və trombon üçün nəzərdə tutulmuşdur. İşlənməsiz sonata formasında yazılmış kvartetin orijinallığı ondan ibarətdir ki, mövzudakı sərtlik və kəskinlik yalnız intonasiyanın köməyilə yox, həm də mis nəfəs alətləri qrupu tərəfindən səslənməsi ilə yaradılır. Kvartetin orijinal tərkibini yaradan bəstəkar yığcam forma daxilində obraz və inkişaf üsullarının müxtəlifliyini, tembr zənginliyini əldə etməyə nail olmuşdur. Ağac nəfəs alətləri üçün yazdığı "Klassik üslubda sekstet"i klassisizm dövrünün üslub xüsusiyyətlərini özündə əks etdirən bir süitadır. Bəstəkar bunu tonallıq və intonasiya xüsusiyyətləri ilə yanaşı, həm də hissələrin quruluşunda saxlayır.

E.Dadaşovanın nəfəs alətləri kvinteti üçün yazılmış "Torağayın nəğməsi"ndə obrazı xatırladan bir melodik xətt pyesin sonuna qədər inkişaf etdirilir. Quruluş etibarilə iki perioddan ibarət olan bu pyes

özünəməxsus şəkildə aramlı və təmkinli xarakterə malikdir. Onun nəfəs alətləri kvinteti üçün digər pyesi C dur-da yazılmışdır. Pyes kiçik olmasına baxmayaraq, olduqca lakonik və aydın formaya malikdir. Burada əsas aparıcı funksiya valtorna alətinə həvalə olunmuşdur. Bəstəkarın "Şənlik nəğməsi" kvinteti mürəkkəb period formasındadır və burada lad dəyişkənliyi üstündür.

Dissertasiyanın **III fəsli "Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış iri həcmli əsərləri Şərq-Qərb musiqisi kontekstində"** adlanır və iki paraqrafdan ibarətdir.

**3.1. "Orkestr üçün yazılmış əsərlərdə nəfəs alətlərinin tembr çalarlarının ifadə tərzi"** adlanan paraqrafda O.Zülfüqarovun fleyta və orkestr üçün konserti ilə M.Mirzəyevin truba və orkestr üçün "Poema-noktürn" əsəri təhlil edilmişdir.

O.Zülfüqarovun fleyta və orkestr üçün konserti üç hissədən ibarətdir və orkestr tərkibi üçlüdür. G dur-da yazılan konsert öz mahnıvariliyi ilə diqqəti cəlb edir və O.Zülfüqarov öz üslubuna xas olan intonasiyaları qoruyub saxlayır. Bəstəkarın musiqisinə xas olan yumşaq, saf intonasiyalar konsertdə aparıcı xətt kimi davam edir. Bu əsərdə formanın, harmonik keçidlərin, tonal planın bəstəkar tərəfindən olduqca aydın və çox dəqiqliklə ölçülüb-biçilməsi onu tam klassik üsluba yaxınlaşdırır. Konsertdə iki hissənin (birinci və üçüncü hissələr) sonata formasında yazılması buna sübutdur. Əsərin finalında əvvəlki hissələrdən mövzuların tam və epizod şəklində təqdim olunması hissələr arasında bağlılıq yaradaraq, bütün silsiləyə ümumiləşdirici bitkinlik verir.

M.Mirzəyevin truba və orkestr üçün "Poema-noktürn" əsəri həyəcanlı emosiyalarla bağlı olan musiqiyə malikdir və tembr rəngarəngliyinin palitrası diqqəti cəlb edir. Əsərin orkestrləşməsi zəngin və dolğundur. Truba solo alət kimi verildiyi üçün simfonik orkestrin tərkibində istifadə olunmur. Birhissəli formada yazılmış əsərin üslub xüsusiyyətləri haqqında qeyd olunmalıdır ki, buradakı sinkopalı ritm, melizmlər, artırılmış sekstalı tonika üçsəslisinin dəfələrlə istifadəsi, eyni zamanda harmonik dilin subdominanta boyalarının alterasiyası vasitəsilə zənginləşməsi, köməkçi septakkordların sekvensiyalı ardıcıllığı və başqa bu kimi cəhətlər pyesi fərqli edir və estrada simfonik orkestrinin çalarları yaradılır.

**3.2. “Müasir dövrdə yazılmış iri həcmli silsilə əsərlərində nəfəs alətləri vasitəsilə Şərq-Qərb sintezinin təcəssümü”** adlanır. Bu paraqrafda C.Zülfüqarovun “Ümid adası” simfonik qravürləri ilə İ.Azmanlının klarnet və fortepiano üçün yazılmış “Bachiana-Bakuana” əsəri araşdırılmışdır.

C.Zülfüqarovun “Ümid adası” simfonik qravürləri kiçik həcmlidir və altı qravürdən hər biri müəyyən obraz daşıyıcısıdır. Solo fleytanın partiyasında səslənən birinci qravür ilə ikinci qravürü bas klarnetin solosu birləşdirərək keçid yaradır. İkinci qravür bu keçidin intonasiyasına əsaslanır. Üçüncü qravür janr etibarilə vals, dördüncü qravür isə elegiya janrına yaxındır. Beşinci janr obraz baxımından dördüncüyə yaxındır. Sonuncu qravür sarabanda janrını xatırladır və sanki silsiləyə postlüdiya rolu oynayır. Qravürlər bir-biri ilə təzadlı olsa da, obraz və janr baxımından bir-birinə yaxın olanları (dördüncü və beşinci qravürü) da var.

İ.Azmanlının klarnet və fortepiano üçün yazılmış “Bachiana-Bakuana” əsəri yeddi hissədən ibarət silsilədir. İ.S.Bax yaradıcılığının təsiri nəticəsində yazılan əsərdə prelüd və fuqalar arasında müəyyən bir əlaqə var. Silsilənin əsasını prelüd, fuqa və sonda postlüdiya təşkil edir. Eyni zamanda P.Hindemitin silsiləsi ilə də bağlılıq nəzərə çarpır. Belə ki, P.Hindemitin “Ludus tonalis”ində 12 fuqa arasında prelüd janrını əvəz edən interlüdiyalar bir-biri ilə əlaqəlidir. Burada əvvəldə prelüd, sonda isə postlüdiyadır.

Silsiləni açan (C dur) prelüdü “Zərbi muğam”ın özünəməxsusluğu müşayiətedici xarakterə malik olmasıdır. Üçsəsli fuqada klarnet partiyasında mövzunun keçidi yoxdur və mövzu ancaq fortepiano partiyasında səslənir. Üçüncü nömrə “Aşıqsayağı” adlanan prelüddür (c moll) və burada “Misri” aşıq havasından istifadə edilmişdir. Müəllif üçüncü nömrədən sonra, yenə də adəti üzrə ən son səs “g” səsini frulato ilə zəncirvari olaraq dördüncü nömrə olan fuqaya bağlayır. Bu fuqa da in C-dir. Dördüncü nömrə olan fuqa dördsəslidir. Burada üç səs fortepianoya, bir səs klarnetə həvalə olunub. Beşinci nömrə “Rəqs” adlanır. İ.S.Baxın “Yaxşı temperasiyalı klavir”inin birinci cildindən G dur prelüdünə əsaslanır. Fermatoda olan “g” səsi ilə “attacca” olaraq klarnet növbəti – altıncı nömrəyə fuqaya keçid alır. Burada digər fuqalardan fərqli cəhət odur

ki, əgər əvvəldə təqdim olunan fuqalarda mövzu fortepianonun partiyasında başlansa da, altıncı nömrədəki fuqada mövzu klarnet ifası ilə başlanır. Silsilənin sonuncu nömrəsi isə Postlüdiyadır. Onun əsasını Baxın orqan üçün d moll "Tokkata"sı ilə lirik poetik obrazlar aləmini əks etdirən "Bayatı-Şiraz" muğamının qarşılıqlı əlaqəsi təşkil edir. Müəllif burada fortepiano partiyasında səslənən d moll tokkatanı olduğu kimi saxlamışdır. Klarnet partiyasında isə "Bayatı-Şiraz" muğamının "Mayə" şöbəsi və "Gərdaniyyə" guşəsindən istifadə etmişdir.

**Nəticə** bölməsində tədqiqata yekun vurularaq, alınan qənaətlər əks olunur. Beləliklə, Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış əsərlərində aşağıdakı xüsusiyyətlər müəyyən olundu:

1. Proqramlı məzmun janrından və formasından asılı olmayaraq, bütün əsərlərin əsasını təşkil edir. Daha çox təbiət (F.Əmirov "Pyeslər", Ə.Abbasov "Yaz nəğməsi", E.Dadaşova "Torağayın mahnısı"), lirik-elegik (N.Əliverdibəyov "Elegiya"), müasir dövrlə bağlı (X.Mirzəzadə "Metamorphose") və bu kimi mövzular əsərlərin obraz-emosional məzmununda ifadə olunmuşdur.

2. Bir çox əsərlərdə daha çox üstünlük fleyta alətinə verilmişdir. Bu da təsadüfi deyildir. Belə ki, fleytanın milli musiqi aləti olan tütək ilə tembr baxımdan yaxınlıq təşkil etməsi bu alətə müraciət olunmasını şərtləndirmişdir.

3. Silsilə formasında yazılan əsərlərdə intonasiya əlaqəsindən daha çox obraz-emosional yaxınlıq nəzərə çarpır. Azərbaycan xalq yaradıcılığının xüsusiyyətləri, muğamın inkişaf qanunauyğunluqları silsilə əsərlərdə bilavasitə öz əksini tapmışdır.

4. Xalq mahnılarının xüsusiyyətləri bir çox əsərlərdə melodik dilin əsasını təşkil edir (Belə ki, N.Əliverdibəyovun "Elegiya" əsərində xalq mahnılarının intonasiya xüsusiyyətləri özünü göstərirsə, E.Dadaşovanın tuba və fortepiano əsərində "Qaçaq Nəbi" xalq mahnısına əsaslanılmışdır).

5. Klassik forma əsərlərin quruluşunda əsas yer tutur. Hətta müasirliyin obrazları ilə boyanmış əsərlərdə də klassik ənənələr çərçivəsi nəzərə çarpır.

6. İlk dövrlərdə (1930-40-ci illər) yazılan əsərlərdə fleyta alətinə üstünlük verilsə də, növbəti illərdə müxtəlif tembrli alətlərin

sintezi özünü büruzə verir (M.Mirzəyev, X.Mirzəzadə, E.Dadaşova, İ.Azmanlı və digər bəstəkarların əsərlərində rast gəlinir.)

7. Şərq və Qərb musiqisinin sintezi əsərlərin musiqi dili və harmonik xüsusiyyətlərinin formalaşmasında nəzərə çarpır. Milli musiqisinin xüsusiyyətləri, xalq yaradıcılığına bağlılıq, obraz və ideya məzmun baxımından qarşılıqlı əlaqələrin verilməsi nəfəs alətləri üçün yazılmış əsərlərin əsas inkişaf xəttini təşkil edir (E.Dadaşovanın "Diptix" əsərində milli nəfəs alətlərinin qərb musiqisinin xüsusiyyətləri ilə qovuşması tembr rəngarəngliyini qabartmışdır).

8. Nəfəs alətləri sırasında az istifadə olunan tuba aləti ilə milli musiqinin xüsusiyyətləri uzlaşdırılmışdır (İlk dəfə bu alətə müraciət edən E.Dadaşova milli musiqinin xüsusiyyətləri ilə Avropa alətinin ifaçılıq imkanlarını birləşdirməyə nail olmuşdur).

Nəfəs alətləri üçün yazılmış əsərlərdə Azərbaycan bəstəkarlarının üslub xüsusiyyətlərinin müəyyən edilməsi istiqamətində aşağıdakı qənaətlər əldə edilmişdir:

1. Nəfəs alətləri üzrə təhsil sisteminin formalaşması Azərbaycan bəstəkarlarını bu sahəyə istiqamətləndirmişdir;

2. Azərbaycan bəstəkarlarının yaradıcılığında nəfəs alətləri üçün yazılmış əsərlər janr etibarilə müxtəlif olub, ansambl, solo, kamera-instrumental, silsilə və konsert janrları kimi təsnifatlaşdırılmışdır;

3. Azərbaycan musiqisində nəfəs alətləri sırasında fleyta, klarnet və qoboy üçün yazılmış əsərlər üstünlük təşkil edir və bu da həmin alətlər üzrə ifaçılığın daha geniş vüsət alması ilə əlaqədardır;

4. Bəstəkar əsərləri ilə yanaşı, bu sahədə pedaqoji tədris repertuarının əsas yükünü öz üzərinə götürən çoxsaylı köçürmə və işləmələr də yaranmışdır;

5. Nəfəs alətləri üçün yazılmış əsərlərdə nəzərə çarpan Şərq və Qərb musiqi təfəkkürünün qovuşması Azərbaycan bəstəkarlarının əsərlərini şərtləndirən əsas amil kimi dəyərləndirilə bilər;

6. Təhlil edilmiş əsərlərdə milli və Avropa nəfəs alətləri arasında olan tembr münasibətlərinin yaxınlığı bilavasitə əsərlərin obraz-emosional məzmununun müəyyən olunmasında mühüm

əhəmiyyət kəsb edir və millilik çərçivəsində Avropa ənənələrinin təzahürü kimi dəyərləndirilir;

7. Azərbaycan musiqisində nəfəs alətləri üçün yazılmış əsərlər əsasən məzmun, harmonik və musiqi dili səviyyəsində yeniliklər əldə etmişdir.

Apardığımız təhlil nəticəsində Azərbaycan bəstəkarlarının nəfəs alətləri üçün yazılmış əsərlərində üslub xüsusiyyətlərinin müəyyənləşməsi prosesində milli və Avropa alətlərinin qovuşması zəminində ümumilikdə, musiqi dilinin zənginləşərək yenilənməsi və prosesin davamlı olması həmin əsərləri şərtləndirən əsas amildir. Nəfəs alətləri üçün yazılan əsərlər isə (tərkibində akustik yeniliklərindən asılı olmayaraq) öz növbəsində onların müasir dövrdə yaşamasıdır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1. İsgəndərova, A.E. Fleyta aləti və Xəyyam Mirzəzadənin "Metamorphose" əsərinin üslub xüsusiyyətləri // "Musiqişünaslığın aktual problemləri" Respublika elmi konfransının materialları, – Bakı: – 4-5 dekabr, – 2019, – s. 58-64.
2. İsgəndərova, A.E. Fikrət Əmirovun fleyta və fortepiano üçün pyeslərinin üslub xüsusiyyətləri // – Bakı: Konservatoriya, – 2021. № 2 (51), – s. 63-75. URL: http://konservatoriya.az/wp-content/uploads/2021/08/Konservatoriya.2021-2.pdf
3. İsgəndərova, A.E. Oqtay Zülfüqarovun fleyta və simfonik orkestr üçün konsertinin quruluş xüsusiyyətləri // – Naxçıvan: Axtarışlar, – 2021. № 4 (15), – s. 187-195.
4. İskəndərova, A.E. X.Mirzəzadənin nəfəs alətləri üçün olan kamera-instrumental əsərlərində klassisizmin ünsürləri // – Bakı: Sənət Akademiyası, – 2021. № 3 (15), – s. 110-119.
5. Искендерова, А.Э. Романтические штрихи в произведении Мусы Мирзоева «Поэма-ноктюрн», написанным для трубы с оркестром // Материалы XIII Международной научной конференции «Искусство глазами молодых», – Красноярск: – 29-30 апреля, – 2021, – s. 45-48.

6. İsgəndərova, A.E. Azərbaycanda nəfəs alətlərinin yaranması və təbliğinə dair // – Bakı: Musiqi dünyası, – 2022. № 1 (90), – s. 150-153. URL: http://www.musigi-dunya.az/1_2022.pdf
7. İsgəndərova, A.E. Cahangir Zülfüqarovun "Ümid adası" simfonik qravürləri // – Bakı: Musiqi dünyası, – 2022. № 2 (91), – s. 56-59. URL: http://www.musigi-dunya.az/2_2022.pdf
8. Искендерова, А.Э. Национальные проявления в камерно-инструментальных произведениях для духовых инструментов Эльнары Дадашовой // – Москва: Музыка и время, – 2022. № 5, – s. 25-28. URL: http://music.tgizd.ru/ru/arhiv/21216
9. İsgəndərova, A.E. İ.S.Bax musiqisinin İlham Azmanlının "Bachiana-Bakuana" əsərində təzahürü // – Bakı: Mədəniyyət dünyası, – 2022. № 41, – s. 91-102.
10. İsgəndərova, A.E. Azərbaycan bəstəkarlarının əsərlərinin nəfəs alətləri üçün işləmə və köçürmələri // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemlər" XXI Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 26 aprel, – 2022,– s.87-90.
11. İsgəndərova, A.E. Azərbaycan bəstəkarlarının yaradıcılığında qoboy aləti // 12th İnternational Conference on Culture and Civilization, – Lahıc, İsmayıllı: – 21-22 iyun, – 2022,– s. 26-29. URL:https://tr.europenjournal.com/_files/ugd/614b1f_609ee93669804ecfaeb076361063f239.pdf
12. İsgəndərova, A.E. Əşrəf Abbasovun yaradıcılığında nəfəsli musiqi alətləri üçün yazılmış əsərlərin xüsusiyyətləri // – Naxçıvan: Axtarışlar, – 2022. №3 (16), – s. 205-210.

Dissertasiyanın müdafiəsi 27 may 2024-cü il tarixində saat 13:00 Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.04.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 43 680 işarə

Tiraj: 100